

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 70 (23.712)

20 aprel 2021-ci il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## Rəsmi xronika

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 19-da Bakının Suraxanı rayonunda “Azərenerji” Açıq Səhmdar Cəmiyyətinin (ASC) yenidən qurulan 220/110/10 kilovoltluq “Hövsan” yarımstansiyasının açılışında iştirak edib.

Dövlətimizin başçısına yenidən qurulan “Hövsan” yarımstansiyası barədə məlumat verilib. Bildirilib ki, 45 il əvvəl tikilən “Hövsan” yarımstansiyası müasir səviyyədə yenidən qurulub, buradakı avadanlıqlar yeniləri ilə əvəz olunub. Yarımstansiya “Şimal” Elektrik Stansiyasında istehsal olunan elektrik enerjisinin ötürülmə keyfiyyətinin artırılmasında, “Abşeron”, “Böyükşor”, “Suraxanı”, “Ramana”, “Əhmədli”, “Qala”, “Zığ” yarımstansiyaları ilə əlaqələnməklə Bakı və Abşeron yarımadasının, xüsusən də Suraxanı, Günəşli, Əhmədli ərazilərinin elektrik enerji təchizatında mühüm rol oynayır. Prezident İlham Əliyev “Hövsan” yarımstansiyasını işə salıb.

Ölkəmizin başçısına yenidən qurulan 110/35/6 kilovoltluq “Maştağa” yarımstansiyası barədə də məlumat verilib. Bildirilib ki, yenidən qurulan “Maştağa” yarımstansiyası Maştağa, Buzovna, Bilgəh, Nardaran qəsəbələrinin, Savalan, “Albalılıq” yaşayış massivlərinin, dənizkənarı sanatoriya, xəstəxana, otellər və digər obyektlər də daxil olmaqla Sabunçu və Xəzər rayonlarının 150 min nəfərə çatan əhalisinin elektrik enerjisi ilə etibarlı təminatına imkan verəcək.

Prezident İlham Əliyev məsafədən idarə olunan SCADA dispetçer idarəetmə sistemi vasitəsilə “Maştağa” yarımstansiyasını da işə salıb.



# Təbiətə qayğı insan sağlamlığına qayğıdır





Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev təbiətin insan sağlamlığında əhəmiyyətindən bəhs edərək demişdir: ***“İnsanın yaxşı həyatını təmin edən amillərdən biri də ekoloji vəziyyət, sağlamlıq və təbiətin, ətraf mühitin qorunmasıdır”.***

Naxçıvan Muxtar Respublikasında təbiətin mühafizəsinə, yaşıllıq sahələrinin artırılmasına xüsusi diqqət və qayğı göstərilir. Muxtar respublikamızın bütün bölgələrində yaşıllaşdırma işləri geniş vüsət almışdır. Hər il yeni meyvə bağları, meşə zolaqları salınır, təbiətin zənginləşdirilməsi istiqamətində ardıcıl tədbirlər görülür. Vaxtlı-vaxtında göstərilən aqrotexniki qulluğun nəticəsidir ki, artıq ağaclar məhsul verir.

Aprelin 17-də muxtar respublikada iməciliklər keçirilmiş, yaşıllıq zolaqları və meyvə bağlarına aqrotexniki qulluq göstərilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin, Nazirlər Kabinetinin, “Naxçıvan Yaşıllaşdırma Xidməti” publik hüquqi şəxsin kollektivləri Naxçıvan şəhərindəki 55 hektarlıq badam bağında keçirilən iməcilikdə iştirak etmişlər. Ötən illər ərzində badam bağında 12 min 800 badam, eləcə də 535 bəzək ağacı əkilmiş, damcı üsulu ilə suvarma sistemi quraşdırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov iməcilikdə iştirak etmiş, ağaclara aqrotexniki qulluq göstərmiş, mövsüm ərzində badam bağında işlərin davam etdirilməsi barədə tapşırıq vermişdir.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin mətbuat xidməti**

## Qədim Cümə məscidinin əsaslı təmir-bərpası davam etdirilir



Muxtar respublikada tarixi-mədəni irsimizin, adət-ənənələrimizin, milli dəyərlərimizin qorunması və təbliğinə yönəldilən tədbirlər davamlı xarakter alıb. Ötən ilin yazından başlayaraq Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin tapşırığına əsasən Ordubad şəhərindəki qədim Cümə məscidinin bərpasına başlanılması da bunun ifadəsidir. Abidənin təmir-bərpası zamanı muxtar respublika rəhbəri bir neçə dəfə inşaat meydançasında olmuş, dəyərli tövsiyələrini vermişdir.

Şəhərin mərkəzi meydanında, Bərəkə dağının sinəsində ucalan qədim Cümə məscidi öz əzəməti ilə diqqəti cəlb edir. Həmin bina nadir memarlıq abidəsi kimi həmişə rayona gələn qonaqları heyrətə salıb. Memarlıq görkəmi ilə diqqəti cəlb edən bu tikili XVII-XVIII əsrlərə aid abidələrin başlıca cəhətlərini özündə birləşdirir. Məscidin giriş qapısındakı lövhədə 1604-cü ildə I Şah Abbasın beş sətirlik fərmanının mətni yazılıb.

Quruculuq ünvanında olarkən öyrəndik ki, burada aparılan təmir-bərpa işləri zamanı ibadət ocağının memarlıq quruluşu saxlanılaraq dindarlar üçün lazımi şərait yaradılacaq. Sahəsi 890 kvadratmetr olan məsciddə axund otağı, qadın və kişi ibadət zalları və digər otaqlar yerləşəcək. Məscidin həyətində də geniş abadlıq işləri aparılacaq, müasir istilik, işıqlandırma və suvarma sistemi yaradılacaq.

Qədim məsciddə, əsasən, milli-memarlıq elementlərindən istifadə ediləcək tarixiliyi və müasirliyi vəhdət şəklində götürülür.

Ordubad şəhər sakini, dindar Nəriman Əliyev bizimlə söhbətdə vurğuladı ki, bina uçub-tökülmək təhlükəsi ilə üzüzə qalmışdı. Yararsız vəziyyətdə olan məscid artıq dövlətimiz tərəfindən abadlaşdırılıb gözəlləşdirilir. Ordubad rayonunun dindarları adından milli-mənəvi dəyərlərimizə göstərdiyi diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə dərin minnətdarlığımızı bildiririk.

**Abbas SEYİD**

## Qəsəbə və kəndlərdə kompleks quruculuq işləri aparılır

Muxtar respublikamızın bütün bölgələri kimi, hər il Babək rayonunda da aparılan abadlıq-quruculuq işlərinin həcmi genişlənir. Ötən il Baytarlıq İdarəsi üçün yeni inzibati bina inşa olunub, Nəcəfəlidizə kəndində kompleks quruculuq işləri aparılıb, rayon mərkəzi olan Babək şəhərində isə müasir üslubda bazar kompleksi tikilərək istifadəyə verilib. Cari ilin mart ayından etibarən isə rayonun Araz kəndində kənd və xidmət mərkəzləri, məktəb binası tikilir. İş icraçısından aldığımız məlumata görə, 88 şagird yerlik olacaq təhsil ocağında tikinti işlərinin yeni tədris ilinin başlanmasına qədər yekunlaşdırılması nəzərdə tutulub. Burada 11 sinif otağı, kitabxana, şahmat və kompüter sinifləri, fizika və kimya laboratoriyaları, hərbi kabinə fəaliyyət göstərəcək. Həmçinin ötən ildən başlayaraq Araz kəndində içməli su və kanalizasiya sistemlərinin çəkilişi həyata keçirilir. Artıq evlərdə birləşmələr də aparılıb. Yaxın gələcəkdə işlərin başa çatdırılması planlaşdırılır.



Babək rayonunun ucqar dağ kəndlərindən olan Göynükdə də artıq texnikaların səsi eşidilməkdədir. Belə ki, dövlət qurumlarının yerləşdiyi köhnə, nimdaş binalar sökülür. Aldığımız məlumata görə, yaşayış məntəqəsində müasir layihə əsasında məktəb, kənd və xidmət mərkəzləri inşa olunacaq, yollar abadlaşdırılacaq.

Rayondakı quruculuq ünvanlarından biri də Sirab kəndidir. 2009-cu ildə burada kənd mərkəzi, həkim ambulatoriyası, məişət evi tikilib istifadəyə verilib. Kənd əhalisinə ikimərtəbəli ticarət mərkəzi xidmət göstərir. 2000-ci ildə tikilmiş 624 şagird yerlik tam orta məktəb binası 2008-ci ildə əsaslı təmir olunaraq müəllim və şagirdlərin istifadəsinə verilib. Zaman durmadan dəyişir və həmin təhsil ocağı da müasir tədris metodlarından kənarda qaldığı üçün bu binada da yenidənqurma işlərinin aparılmasına zərurət yaranmışdı. Yenidənqurmadan sonra məktəb 4 mərtəbəli və 960 şagird yerlik olacaq, elektron lövhəli siniflər, laboratoriyalar, fənn kabinələri yaradılacaq. Bütün bunlar imkan verəcək ki, hər il ali və orta ixtisas məktəblərinə keçirilən qəbul imtahanlarında, olimpiadalarda yüksək nəticə göstərən Sirab kənd tam orta məktəbi uğurlarını daha da artırsın.

Naxçıvan Muxtar Respublikasında tarixi abidələrin, türbələrin, məscid və ziyarətgahların bərpası daim diqqət mərkəzində saxlanılır, onlara ikinci həyat verilir. Babək rayonunun Cəhri qəsəbəsindəki tarixi məscid də müasir layihə əsasında yenidən inşa olunur. İbadət ocağı ikimərtəbəli olacaq. Birinci mərtəbə kişilər, ikinci mərtəbə isə qadınlar üçün nəzərdə tutulub. Məscidin minarəsi 19 metr olacaq və burada axund otağı da yaradılacaq.

**Muxtar RZAZADƏ**



Müasirləşən yurd yerimiz

## Dünənindən bu gününə inkişaf edib abadlaşan doğma kəndim

***Məktəbli vaxtlarımda müəllimimiz uşaqlıq illərinin yadımızda qalan xatirələri haqqında inşa yazmağı tapşırdıqda həmişə kəndimizi xatırlayırdım – qayğısız illərimin keçdiyi Vayxır kəndini. Muxtar respublikamızın xəritəsində kiçik bir nöqtə qədər olsa da, mənim üçün çox böyük bir dünya idi kəndimiz!***

Əvvəlcə onu deyim ki, Vayxır kəndinin tarixi çox qədimdir. Yaxınlığında Govurqala adlı qədim bir müdafiə istehkamı da var. Kəndin ərazisində çıxan eyniadlı mineral bulaq da ölkə səviyyəsində çox məşhurdur. “Badamlı”, “Sirab”la yanaşı, “Vayxır” suyunun da adı tez-tez çəkilir.

Vayxır Babək rayonunda, Naxçıvançayın kənarında alçaq təpəliyin üzərində yerləşir. Naxçıvan-Batabat yolunun sol tərəfindəki təpələr üzərindəki bu kəndin mənzərəsi ilin bütün fəsillərində yoldan keçənləri özünə cəlb edir. Uşaqlığımın ən xoş günləri həmin təpələrdə üzərlik yığmaqla, qoyun-quzu otarmaqla, qaçdı-tutdu oynamaqla keçib. Babamla nənəm burada yaşayırdı. Həyətin aşağısında hər bir kənd evində olduğu kimi, təndirəsərimiz var idi. Ruzi-bərəkət rəmzidir təndirəsər. Dan yeri sökülәndə nənəm təndirəsərə gedər, təndiri alışdırar, yerə palaz salar, palazın üzərinə sərdiyi süfrədə axşamdan yoğurduğu xəmirdən kiçik tikələr kəsib kündələr edərdi.

Təndirəsərin çiy palçıqdan-möhrədən hörülmüş divarında kiçik bir pəncərə var idi. Elə ki bu pəncərədən tüstü çölə yayıldı, qohum-qonşu təndir başında cəm olardı. Hamı oturandan sonra süfrənin kənarları diz üzərinə çəkilər, duvaqlar düzülər, kündələri hamarlayan oxlovlar iməcilərin – yardıma gələn qadınların əllərində sürətlə duvağın üzərində şaqqıltı salaraq hərəkət edər, getdikcə böyüyən lavaşlar duvağa yayılardı.

Oynamaqdan acan uşaq üçün təndirdən çıxan isti lavaşın, bir də inək pendirinin yerini heç bir yemək verə bilməzdi. Anaların, nənələrin, qonşu qadınların zəhməti, əziyyəti ilə başa gələn bu işlər oyun kimi bizim üçün çox maraqlı idi. Təndirəsərin yaxınlığında hey qaçır, oynayır, hərdən də yaxınlaşıb: “Ay nənə, bizə də xəmir ver”, – deyib əlimizi uzadardıq. Həmin istəyimizin cavabı barmaqlarımıza vurulan oxlov, bir də “Ay bala, az şitənin, aman günüdür, gəlib təndirə düşərsiz”, – olurdu.

Ən maraqlısı isə təndirəsərə toplanan qadınların söhbətləri olurdu. Kənddə, şəhərdə, rayonda, hətta bəzən, ölkədə baş verən hadisələrdən danışardılar. Kim nə təzə xəbər bilirdi, hamısını buradakılarla bölüşərdi. (Sonradan başa düşdüm ki, camaatın zarafatla “Təndirəsər” qəzeti nə yazır?” ifadəsi də elə buradakı çox vaxt mənbəyi və əsası olmayan, necə deyərlər, feyk xəbərlərə işarə idi). Çörək bişiriləndən sonra təndir başında işləyənlər üçün mütləq nahar süfrəsi açılardı. Süfrəyə təndir kündə bişən kartof, soğan və nehrə yağı düzülərdi. Bu məqam biz uşaqların ən çox xoşladığı an idi. Oyuna tez ara verib süfrədə biz də yerimizi tutar, nənəmizin süfrədəki nemətlərlə içərisini doldurduğu “Çoban dürməyi”ndən yeyər, təndir közündən salınmış samovardan kəmşirin çayımızı içib təzədən həyətə qaçardıq.

Bu, çoxdan olub... Həmin zamanlarda Vayxır kəndinin vəziyyəti çox çətin idi. İçməli su olmadığından xeyli uzaqdan – artezian quyularından, kanallardan su gətirir, su daşlarına töküb təmizləyir, sonra istifadə edirdik. Qışda palçıqlı yollar isə kənd camaatını lap təngə gətirirdi. Bəzən yollar buz bağladığından insanlar üçün evdən çölə çıxmaq müşkülə çevrilirdi. Bir sözlə, kəndin sosial-iqtisadi vəziyyəti heç də ürəkaçan deyildi.

Amma Vayxırın baharı başqa bir aləm olurdu. Yenicə açılan çiçəklərdən, otlardan yayılan ətir, sanki insanın ruhunu oxşayır, sürünü otarmağa aparan çobanın hərdən çaldığı tütəkdən yayılan xoş melodiya qoyun-quzuların səsini itirərdi. Yazın gəlişi ilə təbiətlə birlikdə bütün kənd, sanki daldığı qış yuxusundan oyanardı. Çiynində dırmıq, bel, toxa olan insanlar əkin sahələrinə çıxar, göy ota acgözlüklə cuman və hər təpədə mələşən qoyun-quzunun səsi bir-birinə qarışardı.





Xalqımızın illərdir, qoruyub saxladığı, yaz qabağı xüsusi qeyd edilən Xıdır Nəbi bayramı, Novruz adət-ənənələri hər evdə xüsusi təntənə ilə keçirilirdi. Bu mərasimlərdə gün batan kimi əlimizə papaq alıb bütün kəndi dolanıb “xıdırpayı”, “bayrampayı” yığar, yumurta toqquşdurar, xoruz döyüşdürər, tonqal qalayardıq. Bayramı, beləcə, yola verib əylənərdik.

Payız vaxtı hər səhər işığının həniri bir qədər azalan Günəşlə bərabər, yuxudan durub bağçamızın seyrinə çıxardım. Küləyin həzin musiqisi altında, sanki rəqs edə-edə yerə düşən saralmış yarpaqları izləyəndə bir səs kəndin sükutunu pozardı. Sanki bir topa xəzan üzərinə dolu yağardı. “Sağ tərəfdəki budağı elə vur ki, hamısı tökülsün. Ehtiyatlı ol, tingi qırarsan!” – bu söhbətin arxasında artıq bağlarda qoz-badam mövsümünün başladığı xəbəri dayanardı. Payız fəslinin gəlişi ilə kənd camaatı yenidən hərəkətə gələr, qış üçün tədarük işlərinə başlayardı.

Ailəmizin ağbirçəyi, Vayxırın uzunömürlü sakinlərindən olan 95 yaşlı Sonabəyim nənə burada doğulub böyüyüb, bu yaşına qədər də kənddən kənara çıxmayıb. O deyir ki, Vayxır kəndi əvvəllər indiki yerdən bir qədər uzaqda, Şiş dağının ətəyində idi. Sonralar kənd camaatı köçərək Naxçıvançayın kənarında məskunlaşıb. Sonabəyim nənə həm də kəndin, o cümlədən Naxçıvanın mahir xalçaçılarından sayılır. İndiyə qədər yüzdən çox xalça, kilim, cecim, palaz toxuyub. Onlardan yalnız bir neçəsi qalıb. Xalçalarını min bir əziyyətlə ərsəyə gətirən nənəmiz deyir ki, istifadə etdiyimiz rəngləri almaq çox çətin idi. Bəzən bir rəngi almaq üçün həftələr lazım olardı. Rəngləri soğan, qoz qabıqlarından, çaytikanı bitkisinin kökündən, qoz ağacının yarpaqlarından alardılar.

Müstəqillik illərində muxtar respublikamızda sürətli sosial-iqtisadi inkişaf hesabına kəndlərimizin siması tanınmaz dərəcədə dəyişib. Hər bir yaşayış məntəqəsində istifadəyə verilən xidmət mərkəzləri ərzaq və digər məhsullara olan tələbatı tam şəkildə ödəyir. Uşaqlıq illərimin yaddaşında palçıqlı küçələri, buzlu yolları ilə qalan kəndimiz indi müasirliyə qovuşub. Bir zamanlar iki avtomobilin yanaşı gedə bilmədiyi köhnə körpü artıq bir neçə ildir ki, yenisi ilə əvəz edilib. Hər il yaz, payız aylarında əkin sahələrinə, evlərə, yollara ziyan vuran dağıdıcı sellərin qarşısını almaq üçün böyük kanallar çəkilib, bəndlər yaradılıb.

Kəndimizdə açılan çörək sexi, təqribən, iki min nəfərə yaxın olan kənd sakinlərinin çörəyə olan tələbatını tam şəkildə ödəyir. Analarımızın yuxusuna haram qataraq gecədən xəmir yoğurub, gözlərinə acı tüstü dola-dola təndir qalamaq qayğısı artıq kiminə görə şirin, kiminə görə əziyyətli xatirə kimi keçmişdə qalıb. Qışın soyuğunda, yayın istisində gözlədiyimiz marşrut növbələri artıq hər saatbaşı hərəkət edən intensiv avtobuslarla əvəz olunub. 10 il bundan əvvəl kənddə yalnız bir-iki evdə telefon var idisə, indi bütün evlərə telefon çəkilib və kənddə internet resurslarından istifadə olunur. Zirzəmidə nənəmin neftlə işləyən “maşınkasında” yemək bişirməsi artıq uzaq keçmişdə qalıb. Kəndimiz neçə illərdir ki, qaz və işıq xətləri ilə təchiz olunub. Məni sevindirən isə odur ki, bu quruculuq və abadlaşdırma işləri yalnız kəndimiz Vayxırda deyil, muxtar respublikanın bütün yerlərində özünü göstərir.

**✍ Məcid RƏŞADƏTOĞLU**

## Tədqiqatlar davam etdirilir

***AMEA Naxçıvan Bölməsi Bioresurslar İnstitutunun Torpaq ehtiyatları laboratoriyası əməkdaşlarının iştirakı ilə Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyində müzakirə keçirilib.***



Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2020-ci il 27 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2021-2025-ci illərdə Naxçıvan Muxtar Respublikasında kənd təsərrüfatı təyinatlı torpaqların münbitliyinin artırılmasına dair” Tədbirlər Planına uyğun olaraq keçirilən müzakirədə muxtar respublikada torpaq münbitliyinin artırılması, məhsuldarlığın yüksəldilməsi ilə bağlı fikirlər səsləndirilib. Müzakirədən sonra tədqiqatçılar Aqrokimya, torpaqşünaslıq və torpaqların kütləvi analizləri laboratoriyası ilə tanış olub, “Araz” Elm-İstehsalat Birliyinin əkin sahələrində müşahidə aparıb, pomidor bitkisi əkininin birgə aparılması və tədqiqi barədə razılıq əldə olunub.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Arılara yaz qulluğu onların inkişafında mühüm rol oynayır

*Gözəl yaz fəsli artıq qarlı-şaxtalı qışı arxada qoyub. Təbiət oyanıb. Dağların arxasından qalxan Günəş ətrafı işıqlandırır, cana gətirir. Çəmənlərin yaşılı, ağacların al-əlvan çiçəyinin ətri hər kəsi təbiətin seyrinə çağırır. Hər yerdə quşların nəğməsi, zəhmətkeş arıların vızıltısı ətrafa canlılıq, hüzur qatır. İnsanların ovqatı yenilənir, onların işgüzarlığı artır. Yazda təkcə insanlar yox, arılar da işləyir. Təbiətin bir parçası olan bu canlıların çalışqanlığı, onlara qulluq edən insanların zəhməti hesabına gözəl və xoş həyatın təməli olan cansağlığını qorumağa kömək edən bal istehsal edilir.*





Əsrarəngiz təbiətli muxtar diyarımızda iqtisadi cəhətdən gəlirli fəaliyyət sahəsi kimi arıçılığın inkişafına yaradılan şərait bu sahə ilə məşğul olan ailə təsərrüfatlarının sayını günbəgün artırır. Babək rayonunun Hacıvar kəndində yaşayan ailə təsərrüfatçısı Fikrət Məmmədov 10 ildən çoxdur ki, arıçılıqla məşğul olur. 40 arı ailəsinə qulluq edən müsahibim deyir ki, səfalı yaz fəsli özü ilə bərabər, təbiətə də əlvanlıq gətirib. Tanrının möcüzəsi hesab olunan arılar da qış yuxusundan oyanıb, xüsusi qulluq tələb edir. Bu günlərdə vaxtımın çox hissəsi arıxanada keçir. Hər bir ailəyə ayrıca baxıram. Ailənin gücünü, ana arının varlığını, toxumlu və süfrəli çərçivələrin sayını, yem ehtiyatını yoxlayıram. Bu zaman ailənin qışlama səviyyəsini də aydınca görmək olur. Hər hansı pətəkdə ana arı itkisi varsa, həmin arı ailəsini güc baxımından arıxanadakı ən zəif, lakin analı arı ailəsi ilə birləşdirirəm. Yem ehtiyatı baxımından zəif ailələrə isə ballı çərçivə və ya şəkər tozundan hazırlanmış şərbətlə köməklik göstəririk.

Müsahibim bildirir ki, qışlamanı yaxşı keçirən ailə yaz uçuşunu yaxşı, yemi zəif olan, xəstəliyə tutulmuş, çox zəifləmiş ailələr isə pis keçirirlər. Belə ailələr, birinci növbədə, müayinə edilir. Arı ailəsinin sürətli inkişafı üçün onları kifayət qədər yemlə təmin edirik. Arıxanada suvat təşkil edirik ki, bu, arıların çirkli sudan istifadəsinin qarşısını alır. Yaz fəslində havaların dəyişkən olmasını nəzərə alaraq ailələri keyfiyyətli istiləşdiricilərlə təmin edir, uçuş bacalarını daraldır, pətəklərin yaz yağışı ilə islanmasının qarşısını alırıq. Pətəyin içərisinin ölmüş arılardan və zibildən təmizlənməsi isə apardığımız sanitar-profilaktik işlərə aiddir. Yuvanın təzələnməsi də arı ailəsində gigiyenanın saxlanmasında mühüm rol oynayır.

Arıçı deyir ki, əsas yaz yoxlanışından sonra yaşlı, qoca arılar, tədricən, tələf olur, cavanlar isə onları əvəz edir. Ailənin cavanlaşması, əsasən, may ayında başa çatır. Sağlam arı ailəsinin sürətli inkişafı üçün yuvanı genişləndirmək lazım gəlir. Arıçı vaxtında tədbir görməzsə, qüvvəli ailələr beçə verir ki, bu hal bal toplanışına ciddi mane olur. Bunun üçün mayın əvvəlində qüvvəli arılardan ana yetişdirilməsinə başlayır, onlardan ilk ayırma beçələr alırıq. Bununla da həm təbii beçəvermənin qarşısı alınır, həm də həmin beçələr əsas bal toplama dövrünədək inkişaf edib ailə formalaşdıra bilirlər. Bu da gələcəkdə nəzərdə tutulandan artıq bal məhsulu əldə etmək deməkdir. Bilirsiniz ki, bal, çiçək tozu, arı südü, vərəmum, mum, arı zəhəri və digər arıçılıq məhsulları insanların sağlamlığı baxımından da olduqca əhəmiyyətlidir. Mən də bu məhsulların bir neçəsini, xüsusilə də bal hasil edirəm.

Müsahibim onu da qeyd etdi ki, qışdan təzəcə çıxmış arılar bir müddət inkişaf edəndən sonra onları dağlara köçürür. Dağlarda gül-çiçək açan vaxt arıları aparıram Culfa rayonunun Milax, Ərəfsə, Teyvaz kəndlərinin dağlarına. Arılar burada kəklikotu, qantəpər, dağ qanqalı və digər çiçəklərdən bal toplayırlar. Havalar bir az soyuyan kimi arıları köçürürəm arana.

Fikrət Məmmədov həm də taxılçılıqla, bostançılıqla məşğuldur. Müsahibim 5-6 hektar sahədə taxıl əkini apardığını, 2 hektar sahədə qarpız əkdiyini və qovun yetişdirəcəyini deyir. Müsahibim gələcəkdə dövlətin arıçılığın inkişafına göstərdiyi diqqət və qayğıdan bəhrələnərək arı ailələrinin sayını artırmağı planlaşdırdığını, kənd təsərrüfatının digər sahələri ilə də aktiv məşğul olacağını söylədi.

Qeyd edək ki, muxtar respublikamızda arıçılığın inkişafında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 18 noyabr tarixli Sərəncamı ilə təsdiq edilmiş “2017-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında arıçılığın inkişafı üzrə Dövlət Proqramı” əhəmiyyətli rol oynayır, bu sahədə mühüm tədbirlər həyata keçirilir. Arıçılıqla məşğul olan təsərrüfat subyektlərinə kreditlər, pulsuz dərman preparatları, hər arı ailəsinə görə subsidiya verilir. Ənənəvi olaraq təşkil edilən “Arıçılıq məhsulları – bal festivalı” isə istehsal olunan məhsulların satışına müsbət təsir göstərir. Beləliklə, muxtar respublikamızda arıçılıqla məşğul olan ailə təsərrüfatlarının sayı artır, əhalinin arıçılıq məhsullarına olan tələbatı yerli istehsal hesabına ödənilir.

**✍ Güntac ŞAHMƏMMƏDLİ**

***Azərbaycan mətbuat tarixində əvəzsiz rol oynamış, XX əsr ictimai fikir və ədəbiyyat tariximizdə yeni dövr açmış, klassik irsimizin dəyərli abidələrindən biri, təkcə Azərbaycanda deyil, bütün Yaxın və Orta Şərq ölkələrində, eləcə də İslam Şərqində siyasi satiranın ilk qaranquşu olmuş "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasından bu il 115 il ötür. 1906-1931-ci illərdə Azərbaycanın mütəfəkkir yazıçı-dramaturqu və publisisti, böyük ədib Cəlil Məmmədquluzadənin (1869-1932) baş redaktorluğu ilə Tiflisdə, Təbrizdə və Bakıda nəşr edilmiş "Molla Nəsrəddin" jurnalı irəli sürdüyü kəskin sosial-psixoloji, iqtisadi-siyasi, mədəni-mənəvi, eləcə də humanitar problemlərlə, həqiqi sənət əsəri olan nəsr və nəzm örnəkləri ilə bütün zamanlarda aktuallığını itirməyən şəkilli satirik məcmuə olmuşdur. Jurnalın ilk sayı 1906-cı il aprelin 20-də Tiflisdə işıq üzü görmüşdür.***

*"Molla Nəsrəddin" – 115*

# Klassik irsimizin dəyərli abidəsi – "Molla Nəsrəddin"

"Molla Nəsrəddin" qısa fasilələrlə 25 il nəşr olunmuş, jurnalın 748 sayı nəşr edilmişdir. 1906-1917-ci illərdə Tiflisdə 340, 1921-ci ildə Təbrizdə 8, 1922-1931-ci illərdə isə Bakıda 400 nömrəsi çapdan çıxmış "Molla Nəsrəddin" jurnalı xalqın taleyini əks etdirən, həmin dövr, bəzən də bütün zamanlar üçün mövcud olan ümumbəşəri həqiqətlərə ayna tutan məcmuə kimi tanınmış və sevilmişdir. Məhz bu cür fəaliyyətin nəticəsidir ki, "Molla Nəsrəddin" həm konkret dövrün ensiklopediyası, həm də bir çox aktual mövzuları ilə müasir dövrün yolgöstərəni rolunu oynayır. Jurnalın meydana çıxması ilə Azərbaycanın ictimai-mədəni həyatında özünüdərk, özünütəhlil və özünütəsdiq üçün böyük zəmin yaranmış oldu. O dövrdə elə bir əhəmiyyətli milli-mədəni, ictimai-siyasi hadisə olmamışdır ki, jurnal onu səhifələrində əks etdirməsin, bu haqda təhlillərə yer verməsin. Nəşrə başladığı ilk illərdə 8 səhifə həcmində nəşr olunan və hər bir nömrəsinin 4 səhifəsi yazıdan, digər 4 səhifəsi isə rəngli karikaturalardan ibarət olan "Molla Nəsrəddin" jurnalı səhifələrində əks etdirdiyi məqalələrdə demokratik cəmiyyət arzusu ilə hər zaman qabaqcıl, mütərəqqi mövqe tutmuş, insanların savadlanması və maariflənməsi işinə böyük töhfələr vermişdir.




Cəlil Məmmədquluzadə 1906-cı il fevralın 21-də Tiflis general-qubernatoruna ərizə ilə müraciət edərək "Qeyrət" mətbəəsində Azərbaycan dilində "Molla Nəsrəddin" adlı həftəlik satirik-yumoristik jurnal çıxarmağa icazə istəmişdir. Onun "qeyri-qanuni hərəkətdə olmadığını" təsdiq edən arayışdan sonra jurnalın nəşrinə icazə verilmişdir. 1906-cı il martın 4-də hökumət tərəfindən Cəlil Məmmədquluzadəyə verilmiş vəsiqədə jurnalın məqalələr, atmacalar, felyetonlar, məzəli şeirlər, məzhəki teleqramlar, satirik hekayələr, lətifələr, poçta qutusu, məzhəki elanlar, xüsusi elanlar, karikatura və illüstrasiyalarla nəşrə başlaması göstərilirdi. Jurnalın 500 nüsxəsi "bir günün ərzində günortayadək", qalan 500-ü isə Cəlil Məmmədquluzadə və Ömər Faiq Nemanzadənin gərgin əməyi sayəsində gecədən səhərədək çap olunmuşdur.

"Qələmin müqəddəs vəzifəsi xalqın xoşbəxtliyi yolunda xidmət etməkdir. Bu ola gərək hər bir qələm sahibinin amalı", – deyən Mirzə Cəlilin bu sözləri təkcə onun öz yaradıcılığı üçün deyil, bütövlükdə, mollanəsrəddinçilərin əsl fəaliyyət devizi idi. Doğrudan da, ötən yüzilliyin ilk onilliklərində Azərbaycanda milli şüurun oyanışında, xalqın özünü dərk etməsində, hüquqları, istiqlalı uğrunda mübarizəyə hazırlanmasında "Molla Nəsrəddin" jurnalı çox mühüm rol oynamışdır.

"Molla Nəsrəddin" jurnalı başda Mirzə Cəlil olmaqla, o dövr Azərbaycan ziyalılarının böyük bir qisminin yaradıcılıq fəaliyyətinin parlaq bəhrəsi, şah əsəri idi. C.Məmmədquluzadə bu barədə obrazlı şəkildə belə deyirdi: "Molla Nəsrəddin" tək bir nəfər müəllifin əsəri deyil. "Molla Nəsrəddin" bir neçə mənim əziz yoldaşlarımın qələmlərinin əsərinin məcmuəsidir ki, mən də onların ancaq ağsaqqal yoldaşıyam". Yenicə yaranmış jurnal tez bir zamanda öz ətrafına Azərbaycan ziyalılarının ən qabaqcıl nümayəndələrini toplayır. Jurnalın redaktoru ilə yanaşı, onun səhifələrində M.Ə.Sabir, Ə.Haqverdiyev, Ə.Nəzmi, Ə.Qəmküsar, M.S.Ordubadi, Ö.F.Nemanzadə, S.Mümtaz və başqaları da gizli imzalarla çıxış edirdilər.

Xalqın üzləşdiyi sosial-siyasi, iqtisadi və mədəni problemləri satirik üslubun imkanları vasitəsilə sadə, anlaşıqlı tərzdə oxuculara çatdıran Mirzə Cəlil və onun Mirzə Ələkbər Sabir, Ömər Faiq Nemanzadə, Əli Nəzmi, Əliqulu Qəmküsar, Əbdürrəhim bəy Haqverdiyev, Məmməd Səid Ordubadi, Əli Razi Şamçızadə və digər məslək yoldaşları bütün fəaliyyətləri boyu Vətənə, millətə layiqincə xidmət göstərmişlər. Xalqın milli mənafelərinin ardıcıl ifadəçisi və müdafiəçisi olan "Molla Nəsrəddin" azadlıq mücadiləsinə, xalqımızın hərtərəfli yüksəlişinə misilsiz töhfələr vermişdir. Jurnalı Mirzə Cəlil dühasının parlaq ifadəsi sayan ulu öndər Heydər Əliyev, bütövlükdə, mollanəsrəddinçilərin milli tərəqqiyə göstərdikləri çoxşaxəli xidmətləri yüksək qiymətləndirərək demişdir: ***"Cəlil Məmmədquluzadə dühası "Molla Nəsrəddin" jurnalında öz əksini tapdı. "Molla Nəsrəddin", onun vasitəsilə Cəlil Məmmədquluzadə və jurnalın işinə cəlb olunmuş Azərbaycanın başqa mütəfəkkir adamları xalqımızın milli şüurunun formalaşmasında, milli ruhunun yüksəldilməsində, milli oyanışında böyük rol oynadılar".***

"Molla Nəsrəddin" jurnalının ən böyük qayəsi Azərbaycan xalqının ictimai şüur baxımından oyanması idi. İlk nömrəsindəki yatmış insanlar karikatura təsviri də jurnalın məqsəd və məramını aydın şəkildə göstərməkdədir. Jurnalın birinci nömrəsinin ilk yazısı baş redaktorun "Sizi deyib gəlmişəm..." məqaləsidir. Məqalə bu sözlərlə başlayır: "Sizi deyib gəlmişəm, ey mənim müsəlman qardaşlarım! O kəsləri deyib gəlmişəm ki, mənim söhbətimi xoşlamayıb, bəzi bəhanələrlə məndən qaçıb gedirlər: məsələn, fala baxdırmağa, it boğuşdurmağa, dərviş nağılına qulaq asmağa, hamamda yatmağa və qeyri bu növ vacib əməllərə. Çünki hükəmalar buyurublar: "Sözünü o kəslərə de ki, sənə qulaq vermirlər".

"Molla Nəsrəddin" jurnalı o dövrdə Türkiyə, Rusiya və İranda ən çox oxunan başqa nəşrlərdən fərqli olaraq, kəmsavad oxuculara müraciət edirdi. Onun mətnləri çox sadə, karikaturaları isə dərhal başadüşülən idi. Karikaturalarda jurnalın çox vaxt təhsilin və dünyəvi cəmiyyətin düşmənləri adlandırdığı mövhumatçı din xadimləri təsvir olunurdu.

Jurnalın əməkdaşları müxtəlif bədii formaların – satirik hekayələrin, felyetonların, şeir və məqalələrin köməyi ilə cəmiyyətin canına işləmiş nadanlığı və naqislikləri öldürücü gülüş hədəfinə çevirirdilər. Jurnalın səhifələrində güldürən xəbərlər, məktublar, elanlar, atalar sözləri, məsəllər, atmacalar geniş yer tuturdu.

"Molla Nəsrəddin" beynəlxalq hadisələrə də münasibət bildirir, imperialist dövlətlərin müstəmləkəçilik siyasətini tənqid edir, Şərq xalqlarının azadlıq uğrunda mübarizəsinə rəvac verirdi. Jurnalın şöhrəti artaraq konkret coğrafi məkan çərçivəsindən kənara çıxmış, Rusiya, Qafqaz və Orta Asiyanın hər yerinə yayılaraq türk və müsəlman xalqlarının ictimai-siyasi inkişafında əhəmiyyətli rol oynamış, habelə İran, Türkiyə, Misir, Hindistan, Mərakeş kimi ölkələrin xalqlarının sosial-mədəni və siyasi tərəqqisinə böyük təsir göstərmişdir.

"Molla Nəsrəddin" jurnalı rəssamlığın, karikatura sənətinin inkişafına da geniş meydan açmışdır. Jurnaldakı dərinmənalı yazılarla diqqətəlayiq karikaturalar vahid məqsədə xidmət etmiş, həm yazarlar, həm də rəssamlar ideya-sənətkarlıq baxımından bir-birini uğurla tamamlamışdır.

"Molla Nəsrəddin" jurnalı Azərbaycan mətbuatı tarixində yeni bir səhifə açmış, satirik publisistikanın inkişafında böyük rol oynamışdır. Bu jurnalın təsiri ilə nəşr olunan "Kəlniyyət", "Arı", "Tuti", "Babayi-Əmir", "Şeypur", "Zənbur" kimi satirik mətbuat orqanları onun ənənələrini davam etdirmişlər. Ümummilli lider Heydər Əliyev bu məsələyə də diqqət yetirmiş, "Molla Nəsrəddin"in bütün zamanlarda öz aktuallığını saxlamasına böyük önəm vermiş, mətbuatda onun ənənələrinin davamını və inkişafını vacib saymışdır. Ümumiyyətlə, ulu öndər zamanın, dövrün ən mürəkkəb sınaqlarından mərdliklə çıxaraq heç vaxt öz amalından, xalqa xidmət yolundan dönməyən mollanəsrəddinçilərin fəaliyyətinə, zəngin yaradıcılıq irsinə həmişə böyük qiymət vermişdir.

Müstəqil Azərbaycanda bütün sahələrdə olduğu kimi, ədəbiyyat və mədəniyyətə qayğı istiqamətində də ümummilli liderimizin siyasi kursu uğurla davam etdirilir. 2006-cı ildə "Molla Nəsrəddin" jurnalının nəşrə başlamasının 100 illiyinin dövlət səviyyəsində qeyd olunması, 2009-cu ildə C.Məmmədquluzadənin 140, 2019-cu ildə 150 illik yubileylərinin, həmçinin digər mollanəsrəddinçilərin yubileylərinin keçirilməsi barədə ölkə Prezidenti cənab İlham Əliyevin imzaladığı sərəncamlar məhz ulu öndər Heydər Əliyevin möhtəşəm siyasətinin uğurlu davamının təzahürüdür. "Molla Nəsrəddin" jurnalının bütün saylarının toplanılıb transliterasiya edilərək çoxcildlik nəşrinin başa çatdırılması da bu baxımdan xüsusi dəyərə malikdir.

Naxçıvan Muxtar Respublikasında da Mirzə Cəlilin və digər mollanəsrəddinçilərin xatirəsi uca tutulur, ehtiramla yad edilir. Bu istiqamətdə həyata keçirilən çoxsaylı tədbirlər, hazırlanan nəşrlər, təşkil olunan elmi konfranslar, tamaşaya qoyulan əsərlər, keçirilən "Mirzə Cəlil günləri" mollanəsrəddinçilərin yaradıcılıq irsinə ümummilli liderimiz Heydər Əliyevin göstərdiyi böyük diqqətin, verdiyi önəmin muxtar respublikamızda layiqincə davam etdirilməsinin əyani təcəssümüdür.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq edilmiş "Oxunması zəruri olan kitabların Siyahısı"na görkəmli ədibin "Hekayələr"i də daxil edilmişdir. 2009-cu ildə isə ədibin 140 illiyi münasibətilə Naxçıvanda "Əcəmi" Nəşriyyat-Poliqrafiya Birliyində "Seçilmiş əsərləri" iki cilddə nəfis tərtibatla çap olunmuşdur.

Görkəmli yazıçı Cəlil Məmmədquluzadənin Naxçıvan Muxtar Respublikasında xatirəsi əbədiləşdirilmiş, Naxçıvan şəhərində onun əzəmətli heykəli ucaldılmışdır. Naxçıvan Dövlət Musiqili Dram Teatrı, Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyi onun adını daşıyır. Ölməz yazıçının Naxçıvan şəhərində ev-muzeyi, Şərur rayonunun Cəlilkənd kəndində və Babək rayonunun Nehrəm qəsəbəsində Xatirə muzeyləri fəaliyyət göstərir.

Müsəlman Şərqinin mətbuat tarixində Azərbaycan dilində ilk satirik jurnalın əhəmiyyəti ölçüyəgəlməzdir. Onun fəaliyyəti bu qəbildən bir sıra nəşrin təsis edilməsinə təkan vermiş, "Bəhlul", "Azərbaycan", "Mirat", "Babayi-Əmir" və sair jurnallar yaranmışdı. "Molla Nəsrəddin" in 25 il ərzində nəşr olunan nömrələrindəki yazılar XXI əsrin insanları tərəfindən də sevilərək oxunur.

**"Şərq qapısı"**

## *"Ümumtəhsil məktəblərində kitabxana işinin təşkili"* mövzusunda konfrans

*Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan təhsil müəssisələrinin kitabxanaçıları ilə "Ümumtəhsil məktəblərində kitabxana işinin təşkili" mövzusunda konfrans keçirilib.*

Konfransda çıxış edən Naxçıvan Muxtar Respublikasının Təhsil naziri Rəhman Məmmədov vurğulayıb ki, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin bu sahəyə göstərdiyi diqqət və qayğı nəticəsində muxtar respublikada kitabxanaların maddi bazası yaxşılaşdırılmış, kitabxana fondu zənginləşdirilmiş, elektron kitabxanalar yaradılmış, kitabxanaların ixtisaslı kadrlarla təminatı diqqətdə saxlanılmış, "Oxunması zəruri olan kitabların Siyahısı" təsdiq edilmişdir. Məktəb kitabxanaları 3 milyona qədər dərslik, 600 mindən çox latın qrafikası ilə nəşr olunmuş bədii ədəbiyyat və ayrı-ayrı fənlərin tədrisi üçün 2140 ədəd elektron tədris vəsaiti ilə təmin edilmişdir. Bildirilib ki, Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin tabeliyində olan 216 kitabxanada 84 kitabxana müdiri, 136 kitabxanaçı çalışır ki, onlardan da 28-i işə qəbul müsabiqələrində yüksək nəticə göstərərək işlə təmin edilib. Kitabxana işinə artan marağın nəticəsidir ki, təkcə 2019-2020-ci tədris ilində muxtar respublika məzunlarından 13-ü ali məktəblərin Kitabxanaçılıq və informasiya fəaliyyəti ixtisasına qəbul olub.



Diqqətə çatdırılıb ki, konfransın əsas məqsədi ümumtəhsil məktəblərinin kitabxanalarının şagirdlər arasında mütaliə vərdişlərinin aşılanması, məktəbin pedaqoji kollektivinə elmi, pedaqoji və ictimai, publisistik və metodik təcrübə sahəsində xidmətlərin göstərilməsi istiqamətində fəaliyyətlərinin gücləndirilməsi, yaradılan əlverişli şəraitdən səmərəli istifadənin təşkili, şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılmasıdır.

Konfransda Kəngərli Rayon Təhsil Şöbəsinin müdiri Emin Məmmədxanlının "Ümumtəhsil məktəbi kitabxanaçılarının vəzifələri", Şərur rayonu Aşağı Yaycı kənd tam orta məktəbinin direktoru Yeganə Məmmədovanın "Şagirdlərin təhsilinin və ümumi dünyagörüşünün inkişafında məktəb kitabxanasının rolu", Ordubad rayon Üstüpü kənd tam orta məktəbinin kitabxana müdiri Sevinc Bayramovanın "Şagirdlərdə mütaliə mədəniyyətinin formalaşdırılması", Culfa rayon Ərəzin kənd tam orta məktəbinin kitabxana müdiri Püstə Cəfərovanın "Kitabxana işinin təşkili və görülmüş işlər" mövzularında çıxışları dinlənilib.

Konfransdan sonra kitabxanaçılar üçün 3 günlük təlimə başlanılıb. Təlimlərin əsas məqsədi kitabxana işinin düzgün təşkilinə kömək göstərmək, onları müasir texnologiyalarla tanış etməkdən ibarətdir. Təlimlərdə iştirakçılara kitabxana işinin təşkili, idarəolunması, İKT-dən istifadə üsulları və proqram təminatı barədə məlumat veriləcək, müzakirələr aparılacaq.

***Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyinin mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsi***

## *"Enactus"* komandası onlayn sahibkarlıq müsabiqəsinin qalibi olub

*Azərbaycan Gənclər Fondu, Azərbaycan Tələbə-Gənclər Təşkilatları İttifaqı və "Enactus Azərbaycan"ın təşkilatçılığı ilə Enactus Onlayn Sahibkarlıq müsabiqəsi keçirilib.*

Ölkəmizin 19 ali təhsil müəssisəsi komandasının iştirak etdiyi müsabiqə "Zoom" platforması vasitəsilə onlayn şəkildə baş tutub. Komandalar onlara ayrılan vaxt çərçivəsində öz layihələrini videoformatda təqdim ediblər. Münsiflər heyətinin qərarı ilə Naxçıvan Dövlət Universitetinin "Enactus" komandasının təqdim etdiyi layihə müsabiqənin qalibi olub. Dövlət Gömrük Komitəsinin Akademiyası II, Azərbaycan Tibb Universitetinin komandası isə III yerə layiq görülüb.



Qeyd edək ki, layihənin məqsədi sənaye müəssisələrində tullantıları nisbətən azaltmaq və bununla da hədəf auditoriyası və komanda üçün gəlir əldə olunmasını təmin etməkdir. Layihə müəllifləri belə hesab edirlər ki, bəzi hallarda sənaye müəssisələri üçün tullantı hesab olunan maddələr digər bir sahədə istifadə ediləcək xammal ola bilər. İkiillik fəaliyyətləri ərzində komanda layihəyə 480 saat vaxt sərf etməklə sənətkarlar üçün yeni iqtisadi imkanlar yaratdı. 70 sənətkarın cəlb edildiyi ilkin mərhələdə ümumi dəyəri 6800 manat olan 4021 ədəd əl işinin satışı reallaşdırıldı. Onların ailə gəlirlərinin 45-50 faiz artırılmasına nail olunan layihədə "Enactus" komandası da ümumi gəlirin 10 faizini əldə etməklə 680 manat həcmində gəlirə sahib oldu.

Məlumat üçün onu da bildirək ki, Naxçıvan Dövlət Universitetinin "Enactus" komandası 2008-ci ildən fəaliyyət göstərir. 2010, 2011 və 2014-cü illərdə milli çempionatın qalibi olaraq ölkəmizi ABŞ, Malayziya və Çində təmsil edib.

***Naxçıvan Dövlət Universitetinin Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsi***



## Ağbulaq İstirahət Mərkəzi tələbələrin gözü ilə

***Muxtar diyarımızın kəndlərində yaradılmış unikal şərait – rahat yol, müasir infrastruktur obyektləri, hər şeydən əvvəl, burada kənd turizminin inkişafı üçün əlverişli imkanlar açıb. Bu baxımdan dilbər guşələrimizdən biri olan Şahbuz rayonundakı Ağbulaq İstirahət Mərkəzini, xüsusilə qeyd etmək lazımdır. 2013-cü ildən fəaliyyətə başlayan mərkəz kənddə turizmin inkişafına böyük təkan olub.***

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 31 yanvar tarixli Sərəncamı ilə təsdiq edilən “2018-2022-ci illərdə Naxçıvan Muxtar Respublikasında turizmin inkişafına dair Dövlət Proqramı”na uyğun olaraq muxtar respublikanın kənd turizminin tətbiq edildiyi ilk yaşayış məntəqəsi olan Ağbulaqda kənd və dağ-xizək turizminin inkişafı üçün kompleks quruculuq işləri aparılıb. Bu il fevralın 17-də isə Ağbulaq Xizək Mərkəzi istifadəyə verilib. Ağbulaq İstirahət Mərkəzi yerli və xarici turistlərin ən çox ziyarət etdiyi məkanlardan biridir. Bura qış turizmi ilə yanaşı, yay turizmi üçün də əlverişli məkandır. Kənddə, həmçinin qonaqlar üçün hər cür şəraitlə təmin olunmuş hostellər də var. Kim istəsə, gəlib bu hostellərdə rahat istirahət edə bilər.



Elə bu günlərdə Naxçıvan Muxtar Respublikası Gənclər Fondunun, Naxçıvan Dövlət Universitetinin Tələbə-Gənclər Təşkilatının təşkilatçılığı ilə universitetdə təhsil alan xarici ölkə vətəndaşları və Azərbaycanın regionlarından olan tələbələr Ağbulaq İstirahət Mərkəzinə aparılıb. Biz də fürsətdən istifadə edərək onlarla görüşdük və tələbələrin fikirlərini öyrəndik.

Naxçıvan Dövlət Universitetinin Tibb fakültəsində Stomatologiya ixtisası üzrə təhsil alan müsahibim *Muhammed Aydın* deyir: – Naxçıvan bir çox tarixi gözəlliklərə sahib olan yerdir. İstiqanlı, mehriban insanları, özünəməxsus mədəniyyətləri bizi, sanki öz evimizdə hiss etdirir. Bənzərsiz təbiəti və onun qoynundakı istirahətin ləzzətini canlı olaraq görmək, duymaq tam başqadır. Naxçıvanda yaradılan xizək mərkəzi böyük zənginlikdir. Əvvəllər biz istirahət üçün öz tələbə yoldaşlarımızla buraya yaxın olan Sarıqamış Xizək Mərkəzinə gedirdik və hesabladığımıza görə, təxminən, 400 kilometrə yaxın məsafə qət etmiş olurduq. Amma bu gün mərkəzdən 54 kilometr məsafə qət edərək bu gözəl məkana gəlib əylənə bilirik. Təbii ki, sağlam həyat üçün təbiətdə olmaq, açıq havada gəzmək, idman etmək lazımdır. Ərazi bütün bunlara imkan verir. İstirahət edərkən aldığım xoş təəssüratlar hesabına, əminəm ki, yolumu yenidən bu bölgəyə salacağam.





Ağbulağın təbiətinə heyran olan digər xarici tələbələrdən biri də *Furkan Baran Bilgin*dir. Naxçıvan Dövlət Universitetində Stomatologiya ixtisasında təhsil alan Furkan bildirir ki, gərgin semestr ərzində Ağbulaqda bir gün keçirmək istirahətin ən gözəl formasıdır. Adını bulaqdan alan bu kənd çayları, dərələri, havası ilə cənnət kimi bir yerdir. Yeni qurulan xizək mərkəzi Ağbulağa böyük bir ad qazandırıb. Burada uşaqların əylənməsi üçün ayrıca yer ayrılmışdır. Xizək sürmək istəməyənlərə isə kanat turları təşkil olunur. Uyğun qiymətlərlə mərkəzdə istədiyiniz qədər əylənə bilərsiniz. İnanıram ki, bu füsunkar bölgə haqqında yaxınlarıma danışsam, onlarda qiyabi də olsa, təəssürat yarada biləcəyəm. Əminliklə deyə bilərəm ki, Ağbulaq buraya gələn yüzlərlə bizim kimi tələbənin, turistlərin yaddaşına təbii gözəllikləri ilə əbədi həkk olunacaq.

Ağbulağın turizm baxımından böyük imkanlara malik bir yer olduğunu söyləyən və Naxçıvan Dövlət Universitetində Stomatologiya ixtisası üzrə təhsil alan *Zahir Axundov* Azərbaycanın Lənkəran bölgəsindəndir. O deyir ki, biz gənclər üçün belə ekskursiyaların keçirilməsi çox yaxşı bir layihədir. Bu ekskursiyalar asudə vaxtlarımızı səmərəli keçirməyimiz üçün hazırlanıb. Ağbulaq İstirahət Mərkəzi tələbələrin istirahəti üçün ideal kompleksdir və mən digər tələbələrə də vaxtlarını əyləncəli, maraqlı keçirmək üçün Ağbulağa gəlmələrini tövsiyə edirəm. Əlverişli coğrafi mövqeyi, müxtəlif iqlim qurşaqlarının mövcudluğu, zəngin mədəni irsi, təbii müalicə mərkəzləri, mineral suları, özünəməxsus mətbəxi, yüksək qonaqpərvərlik ənənələri və müasir tərəqqisi muxtar respublikada turizmin inkişafını şərtləndirən başlıca amillərdir. Ağbulağın timsalında bir daha deyə bilərik ki, diyarımızda turizm müstəqil istiqamətlər üzrə inkişaf etdirilir. Bu sahədə həyata keçirilmiş tədbirlər Ağbulaq kəndini təkcə öz yurdumuzda, ölkəmizdə deyil, dünyada da tanıtmaqdadır.

**Aytac CƏFƏRLİ**

## “Mənim dünyam” adlı sərgi açılıb





*Dünən Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Rəssamlar Birliyinin 50 illik yubileyi ilə əlaqədar birlik üzvlərinin “Mənim dünyam” adlı sərgisi keçirilib.*

Tədbirdə Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, muxtar respublika rəhbəri tərəfindən 2021-ci il 2 mart tarixində imzalanan “Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin 50 illik yubileyinin keçirilməsi haqqında” Sərəncam muxtar respublikada rəssamlıq sənətinin inkişafına, rəssamlarımıza göstərilən diqqətin və qayğının ən yüksək ifadəsidir. Birliyin sədri buna görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə rəssamlarımız adından dərin minnətdarlığını bildirib.

Qeyd edilib ki, ötən dövr ərzində muxtar respublikada rəssamlıq sənətinin inkişafı ilə bağlı ardıcıl tədbirlər görülüb. Rəssamlığa maraqlı olan gənc rəssamların yetişməsi, onların istedadlarının üzə çıxarılması, eyni zamanda rəssamlıq sənətinin tədrisi üçün də hərtərəfli şərait yaradılıb. Birlik üzvləri tərəfindən mütəmadi olaraq keçilən ustad dərsləri, ötən ilin noyabr ayında birliyin nəzdində ilk dəfə olaraq yaradılan Gənc rəssamlar bölməsi bu işdə mühüm rol oynayır.

Naxçıvan Muxtar Respublikasının Əməkdar rəssamı Həmzə Sadiqov, Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Qəhrəman Tağıyev çıxış edərək Rəssamlar Birliyinin 50 illik yubileyi münasibətilə keçirilən sərginin əhəmiyyətindən danışıb, rəssamlara yaradıcılıq uğurları arzulayıblar.

Qeyd edək ki, sərgidə 22 rəssamın mövzu və janr baxımından fərqlənən 37 rəsm əsəri nümayiş olunur. Sərgi bir həftə davam edəcək.

**Güntac ŞAHMƏMMƏDLİ**

## Ötən ay bir sıra mədəni tədbirlərlə yadda qalmışdır



***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyi və tabe müəssisələr tərəfindən pandemiya ilə əlaqədar xüsusi qaydalara ciddi riayət edilməklə mart ayında da bir sıra tədbirlər keçirilmişdir.***

Milli Teatr Günü münasibətilə Cəlil Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrında Nəbi Xəzrinin “Burla xatın” əsəri əsasında hazırlanmış eyniadlı tamaşanın onlayn nümayişi teatrsevərlər tərəfindən maraqla qarşılanmış, ötən ayın yaddaqalan mədəni tədbirlərindən olmuşdur. Həmçinin mart ayında Naxçıvan Dövlət Filarmoniyasının Estrada Orkestrinin və filarmoniyanın solistlərindən Naxçıvan Muxtar Respublikasının Əməkdar artisti Ruhiyyə Hüseynova və gənc ifaçı İlkin Abdullayevin solo konsertləri də onlayn formatda musiqisevərlərə təqdim olunmuş, tamaşa və konsertlər Naxçıvan Televiziyasında, eləcə də nazirliyin internet saytında və sosial şəbəkə hesablarında canlı olaraq yayımlanmışdır.

Mart ayında Naxçıvan Muxtar Respublikası Təhsil Nazirliyi ilə birgə Heydər Əliyev Uşaq-Gənclər Yaradıcılıq Mərkəzində Təhsil Nazirliyinə birbaşa tabe məktəbdənkənar təhsil müəssisələrinin dram müsabiqəsinin Naxçıvan şəhər mərhələsi keçirilmiş, qaliblər mükafatlandırılmışdır.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Ali və orta ixtisas təhsili müəssisələrində ixtisasların müvafiq təşkilatlara hamiliyə verilməsinə dair əlavə tədbirlər və innovasiyaların dəstəklənməsi haqqında” 2019-cu il 3 aprel tarixli Sərəncamının icrası ilə nazirliyin hamiliyinə verilmiş Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, Arxiv işi və abidələrin qorunması və Kitabxanaçılıq və informasiya ixtisasları üzrə təhsil alan tələbələrinə “Naxçıvanqala” Tarix-Memarlıq Muzey Kompleksində “Tarix və memarlıq abidələri milli sərvətimizdir” və Adil Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq Kitabxanasında “Uşaq kitabxanalarında kataloqların növləri və təşkili qaydaları” mövzularında 2 açıq dərs keçilmişdir. Bundan başqa, Azərbaycan Respublikasının Əməkdar artisti Tofiq Seyidov tərəfindən Naxçıvan Musiqi Kollecinin Bədii yaradıcılıq işi ixtisası üzrə təhsil alan tələbələrinə ustad dərsi keçilmiş, Naxçıvan Müəllimlər İnstitutunun tələbələrinə “Nizami” sənədli filminin nümayişi təşkil olunmuşdur. Mədəniyyət Nazirliyinin hamiliyinə verilmiş müvafiq ixtisaslar üzrə təhsil alan tələbələr üçün əyani vasitələrlə praktik dərslərin keçilməsi də təşkil edilmiş, Naxçıvan Müəllimlər İnstitutunun Təsviri incəsənət müəllimliyi ixtisasının II kurs tələbələrinin Naxçıvan Dövlət Tarix Muzeyində praktik dərs keçməsi təmin olunmuşdur.

Aşıq Ələsgərin 200 illik yubileyi münasibətilə bu ilin mart ayında Cəlil Məmmədquluzadə adına Naxçıvan Muxtar Respublika Ədəbiyyat Muzeyindəki guşə zənginləşdirilmiş, M.S.Ordubadi adına Naxçıvan Muxtar Respublika və A.Babayev adına Naxçıvan Muxtar Respublika Uşaq kitabxanaları və rayon (şəhər) MKS-lərdə kitab sərgiləri qurulmuş, həmçinin Culfa və Sədərək rayon MKS-ləri tərəfindən 2 tədbir keçirilmişdir. Bundan başqa, nazirliyin təşkilatçılığı ilə AMEA Naxçıvan Bölməsinin İncəsənət, Dil və Ədəbiyyat İnstitutunun Dilçilik şöbəsinin müdiri, filologiya üzrə fəlsəfə doktoru, dosent Nuray Əliyeva tərəfindən Naxçıvan Musiqi Kollecinin tələbələrinə Aşıq Ələsgərin yaradıcılığından bəhs edən ustad dərs keçilmişdir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin “Muzeylərlə əlaqələrin daha da gücləndirilməsi haqqında” müvafiq Sərəncamına uyğun olaraq tərtib edilmiş qrafikə əsasən muxtar respublikada fəaliyyət göstərən 40-dan çox nazirlik, komitə və baş idarələrin, müəssisə və təşkilatların muzeylərlə tanışlığı təmin edilmiş, Azərbaycanın digər bölgələrindən və xarici ölkələrdən muxtar respublikamıza səfər edən qonaqların muzeylərlə tanışlığı zamanı onlara nümunəvi muzey xidməti göstərilmişdir. Mart ayında muxtar respublikanın muzeylərini 8 min 58 yerli, 668 əcnəbi olmaqla, ümumilikdə, 8 min 726 tamaşaçı ziyarət etmişdir. Həmçinin ötən ay muzeylərə 227 yeni eksponat daxil olmuşdur.

Mart ayında muxtar respublikanın kitabxanalarında “Nizami Gəncəvi ili” ilə əlaqədar böyük ədibin həyat və yaradıcılığına həsr olunmuş 5 tədbir keçirilmişdir.

Ötən ay da Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2017-ci il 28 avqust tarixli Sərəncamı ilə təsdiq olunmuş “Oxunması zəruri olan kitabların Siyahısı”na daxil olan kitabların müzakirəsi davam etdirilmiş, muxtar respublikadakı kitabxanalar tərəfindən 18, klub müəssisələri əməkdaşlarının iştirakı ilə 16 olmaqla, 34 kitab müzakirəsi keçirilmişdir. Müzakirələrdən 2-si onlayn formatda reallaşdırılmışdır.

Hesabat ayında kitabxanalarda yeni oxucu sayı 654, oxucu gəlişi 6 min 992, kitab verilişi isə 35 min 835 nüsxə olmuşdur. Həmçinin ötən ay elektron kataloqa 600 adda kitab işlənmiş, ümumilikdə, elektron kataloqda kitabların sayı 22 min 187-dən 22 min 787-yə çatdırılmışdır. Bundan başqa, şəbəkəyə 32 kitab (PDF) işlənərək, şəbəkədəki kitabların (PDF) ümumi sayı 3 min 306-dan 3 min 338-ə çatdırılmışdır. Ay ərzində elektron kitabxanadan 123 lokal, 451 qlobal olmaqla, 574 oxucu istifadə etmişdir.

Ötən ay nazirliyin Gənclər Təşkilatının və tabe müəssisələrin Gənclər birlikləri üzvlərinin iştirakı ilə müxtəlif mövzularda tədbirlər keçirilmiş, onların asudə vaxtlarının səmərəli təşkili diqqətdə saxlanılmışdır.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

**Bildiriş**

Naxçıvan “Şüşə Qablar Zavodu” Açıq Səhmdar Cəmiyyətinin (VÖEN № 0200138531) fəaliyyəti dayandığından ləğv edilmişdir.

**İtmişdir**

“Naxçıvan Taekvando” İdman Mərkəzinin adına verilmiş möhür və ştamp itdiyindən etibarsız sayılır.

* * *

Naxçıvan şəhəri, Əlincə məhəlləsi bina 4a, ev 25-də yaşamış İsmayılov Xasay İsrafil oğlunun adına olan 5644 inventar nömrəli texniki pasport itdiyindən etibarsız sayılır.

ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA
Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az
Qeydiyyat №: 575
Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır
Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 333